

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 98 (21.759)

*24 may 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Mayın 23-də “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri görüşdə iştirak ediblər.

Dövlətimizin başçısı görüşdə nitq söyləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parlaq qələbə münasibətilə bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini ürəkdən təbrik edərək bildirib ki, bizim idmançılar bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu Oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır.

Sonra IV İslam Həmrəyliyi Oyunlarında ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olunub.

Sonda xatirə şəkilləri çəkdirilib.




## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İsrailin ölkəmizdəki səfiri ilə görüşüb



Mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavla görüşüb.

Ali Məclisin Sədri Dan Stavın muxtar respublikaya ötən səfərini və bu zaman səmərəli danışıqların aparıldığını xatırlatdı.

Ali Məclisin Sədri İsrail dövlətinin Azərbaycanla faydalı əməkdaşlığından və bunun Naxçıvanla müxtəlif sahələrdə əlaqələrin inkişafına verdiyi töhfədən danışdı.

Səmimi qəbula görə minnətdarlıq edən Dan Stav Naxçıvana növbəti səfərinin və əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğuladı. Diplomat səfər müddətində keçirəcəyi görüşlərin əməkdaşlıq üçün yeni imkanlar açacağını qeyd etdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri xanım İvana Duarte ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamladı, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı fəaliyyətinə toxundu. Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən ötən müddətdə ölkəmizdə 161 layihə çərçivəsində investisiya qoyuluşunun həyata keçirildiyini bildirən Ali Məclisin Sədri bunun özəl sektorun inkişafına dəstək verdiyini vurğuladı.

Xanım İvana Duarte ilk dəfə Naxçıvana səfər etdiyini bildirdi, muxtar respublikada olmaqdan və keçirilən görüşdən məmnunluğunu ifadə etdi. Avropa Yenidənqurma və İnkişaf Bankının fəaliyyət istiqamətləri və Azərbaycanda həyata keçirdiyi layihələr haqqında məlumat verən xanım İvana Duarte muxtar respublika ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.

Söhbət zamanı qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olundu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İsrailin səfiri Dan Stav muxtar respublikanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub

*İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav muxtar respublikaya səfəri çərçivəsində Naxçıvanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub.*

Səfir əvvəlcə Naxçıvan Dövlət Universitetində olub, ali təhsil ocağının Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri ilə görüşüb. Dan Stav İsrail-Azərbaycan əlaqələrinə dair mühazirə oxuyub, tələbələri maraqlandıran sualları cavablandırıb.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında olan qonağa məlumat verilib ki, 8 mərtəbəli binada tibbin ən son yenilikləri tətbiq olunur.





2015-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin açılışını etdiyi xəstəxanada, ümumilikdə, 300 çarpayıdan ibarət 14 stasionar şöbə fəaliyyət göstərir. 130 həkimin, 467 orta və kiçik tibb işçisinin çalışdığı xəstəxanada elmi-tibbi kitabxana da yaradılıb. Burada tələbələr üçün 2 böyük auditoriya və 7 sinif otağı, kompüter zalı, 200 nəfərlik iclas zalı, tibb idman mərkəzi və müayinə otaqları fəaliyyət göstərir.

“AKİ Əczaçılıq Anbarı” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanış olan səfirə müəssisə haqqında ətraflı məlumat verilib.

İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub.

**Tural AĞAYEV**

***Ötən yay Nəhəcir kəndi ilə bağlı hazırlanmış və Naxçıvan Televiziyasının efirində yayımlanan videomaterialda kənd sakinlərindən biri təəssüratlarını belə ifadə etmişdi: “Dağların başına boyunbağı kimi dolanan yolları qət edib Nəhəcirə gəlmək daha əvvəlki kimi müşkül məsələ deyil. Sovet dönəmindən bəri bu uçqar dağ kəndinin uzun illər yığılıb qalan sosial problemləri də həll edilib”. Bu fikirlər özlüyündə bir çox çalarları ifadə edirdi. Hansı ki bu iki cümlədə Nəhəcirin bugünkü növrağı əks olunmuşdu.***

## Dağlar arxasında qalsa da, diqqətdən kənarda qalmayan

# Nəhəcir



*Əsrarəngiz Naxçıvan təbiəti*

Səhər mehindən dəniz kimi dalğalanan taxıl zəmiləri, bu yal-yamacdakı alaçıqlarda köç salanlar, çiçəklər, al-əlvan rəngə boyanmış dağ yamacları insana xoş anlar yaşadır, onun ruhunu və təəssüratını zənginləşdirirdi. Çobanlar, sözün əsl mənasında, yuxularına haram qatıb sabahı bu çöllərdə açmışdılar. Mal-qara örüşə çıxarılıb, yerbəyer edilmişdi. Bu an Aşıq Ələsgərin təbiət mövzusunda qələmə aldığı “Yaylaq” şeiri yadıma düşür. Ustad aşıq yaylağın timsalında doğma Azərbaycan təbiətinə dərin məhəbbətini şirin poetik dillə, rəngarəng bədii vasitələrlə belə ifadə edirdi:

*Gözəllər seyrəngahısan,*
*Görüm səni var ol, yaylaq!*
*Açılsın gülün, nərgizin,*
*Təzə mürgüzar ol, yaylaq!*

Həqiqətən də, doğma yurdun təbiətini olduğu kimi oxucuya çatdırmaq üçün coşqun təbiətli bir şair olmaq lazımdır. Bəlkə də, Naxçıvan təbiətinin zənginliyindən, füsunkar gözəlliklərindən ilham alan Məmməd Araz, İslam Səfərli kimi şairlərimizin qələmindən süzülən poetik ifadələr və əzəmətli monumentlərə bənzəyən dağları, axar-baxarlı dərələri, kükrəyib daşan çayları kağız, kətan üzərinə köçürən Bəhruz Kəngərli kimi rəssamlarımızın fırçasından canlanan əsrarəngiz əl işləri ərsəyə gəlib.

Günəş ətrafa yenicə boylanarkən qırmızılıqdan üfüqlərdəki dağ silsiləsi kimi görünən buludlar əlvan rəngə boyanırdı. Söhbət dağdan düşmüşkən, sağ tərəfimizdə Naxçıvanın simvolu olan Haçadağ, irəlidə isə Nəhəcir və Əshabi-Kəhf dağları mərd, mətin və sayıqlığı ilə zamana meydan oxuyur. Özünəməxsus rəng çalarları olan Naxçıvan dağları dan yeri söküləndə bir başqa aləm olur. O dağlar ki Günəşi hamıdan qabaq salamlayırlar. Dəniz səviyyəsindən yüzlərlə metr hündürlükdə yerləşən bu təbiət abidələrinin başı çox vaxt qarlı-dumanlı olur.

*Baltutan barmaq yalayar…*

Nəhəcir kəndinin əkinəyararlı torpağı az olduğu üçün burada, əsasən, arıçılıq və maldarlıq geniş yayılmış təsərrüfat sahələridir. Kəndin həndəvərində də ətraf kəndlərdən gətirilmiş neçə-neçə arı ailələrinə rast gəlmək mümkündür. Çünki bol məhsul əldə etmək üçün köçəri arıçılıq mütləqdir. Nəhəcirli Əli Tarverdiyevi bu tərəflərdə hər kəs təcrübəli arıçı kimi tanıyır. Müsahibimizin sözlərinə görə, erkən yazda qışlamadan çıxmış arı ailələri xüsusi qayğı tələb edir. Bu mənada, arıların yeri məkanından asılı olaraq may-iyun aylarında dəyişdirilməlidir. Arandakı sahibkarlar arıların, əsasən, uçqar dağ kəndlərinə köçürürlər. Nəhəcirin zəngin təbiəti də bu baxımdan xüsusilə fərqlənir. Kərəm Ələkbərovun isə 30-a yaxın arı ailəsi var. Onun sözlərinə görə, dağdərələrdə bitən gül-çiçəyin nektarından hasilə gələn Nəhəcir balının dadı bir başqadır. Elə ötən il Naxçıvan şəhərində keçirilən “Arıçılıq məhsulları – bal” festivalına nəhəcirli arıçılar da öz məhsullarını çıxarmış, yaxşı qazanc əldə etmişlər.

* * *

Nəhəcirdə üz tutduğumuz ilk ünvan kənd məktəbi oldu. Çünki təhsil hər bir ölkənin parlaq gələcəyini müəyyənləşdirən amildir. Zamanında mənəvi təzyiqlərə məruz qalan, bütün çətinliklərə sinə gərərək məktəbdarlığın əsasını qoyan Məhəmməd Tağı Sidqi, Mirzə Cəlil kimi dahilərin torpağında bu gün ən müasir təhsil infrastrukturu yaradılıb. Son illər Naxçıvanda 200-dən çox məktəb binası tikilib və ya əsaslı şəkildə yenidən qurulub.

***Haşiyə:** Hazırda Babək rayonunun Payız və Gərməçataq kəndlərində də yeni sosial obyektlər inşa olunur, təhsil infrastrukturu yenilənir.*

Müsahibimiz Yaşar Quliyev deyir ki, indi Nəhəcir kənd tam orta məktəbi şəraitinə görə muxtar respublikanın digər təhsil ocaqlarından fərqlənmir. Naxçıvan şəhərindən, rayonun Zeynəddin və Kültəpə kəndlərindən olan və təyinat əsasında burada çalışan müəllimlər məktəbdəki uğurların memarları sırasındadırlar. Baş memar isə şəksiz ki, dövlətimizdir. Kənd dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşdiyi üçün əməkhaqqı və pensiyalar 10 faiz artımla ödənilir. Məlumat üçün deyək ki, cari ilin aprel ayında keçirilən qəbul imtahanlarında 4 məzundan 3-ü uğurlu nəticə əldə edib. Təcrübəli Yaşar müəllimin oğlu Xəyal da atasının yolunu davam etdirərək məktəbdə onunla çiyin-çiyinə çalışır, gələcəyimiz olan gəncləri intellektli, vətənpərvər, milli və mənəvi dəyərlərə bağlı ruhda tərbiyə edir.

2011-ci ildə Ali Məclis Sədrinin iştirakı ilə kənd və xidmət mərkəzləri, eləcə də müasir yol istifadəyə verilib. Kənd ağsaqqalı Yusif Muradov deyir ki, ötən əsrin sonlarında ölkəmizdə, o cümlədən muxtar respublikamızda olduğu kimi, Nəhəcirdə də vəziyyət ürəkaçan deyildi. Ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlişi, bu yurdu işğal təhlükəsindən xilas etməsi və ən nəhayət, xalqın təkidli tələbi ilə ikinci dəfə ölkəmizdə siyasi hakimiyyətə qayıdışı xalqın ümidlərini doğrultdu. Ulu öndərin ideyalarına sadiqliyin nəticəsidir ki, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələri müasirləşir, yeni görkəm alır. Nəhəcirdə elə ev yoxdur ki, şəxsi avtomobili olmasın. Hər gün Naxçıvan şəhərinə marşrutlar işləyir.

İkinci Dünya müharibəsi veteranı Kazım Hacıyev isə mövzuya başqa bir aspektdən yanaşır. Deyir ki, bu yaxınlarda faşizm üzərində qələbənin 72-ci ildönümü geniş qeyd olundu.



Bununla bağlı veteranlarla görüş keçirildi, onlara hədiyyələr təqdim edildi. Dövlət başçısının müvafiq sərəncamı ilə mənə də min manat məbləğində birdəfəlik maddi yardım verildi. Pulsuz minik avtomobili ilə təmin olunmuş, eləcə də orden və medallarla təltif edilmişəm. Ötən əsrin 90-cı illərindən fərqli olaraq bu gün müstəqil Azərbaycan dövləti tərəfindən illər öncə göstərdiyimiz rəşadətə yüksək qiymət verilir.

Əlverişli coğrafi mövqeyi, gözəl təbiəti, özünəməxsus mətbəxi, eləcə də yüksək qonaqpərvərliyi ilə seçilən Nəhəcir yerli və xarici turistlərin maraq dairəsindədir. İndi birmənalı şəkildə demək olar ki, rayonun hər yerində, həmçinin uçqar dağ kəndlərində infrastrukturun yenilənməsi kənd turizminin inkişafı üçün zəmin yaradıb. Kənd evlərində yaşayıb istirahət etmək, şəhər mühitindən uzaqlaşmaq, ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə qidalanmaq qonaqların da üstünlük verdiyi istirahət növüdür. İndi bu kənddə müasir yol, sürətli internet, təmiz dağ havası, buz bulaqlar, hündür dağ zirvələri, eləcə də mineral bulaqlar mövcuddur. Söhbət mineral bulaqlardan düşmüşkən qeyd edək ki, Nəhəcir dağının ətəyində yerləşən Şorsu bulağı öz müalicəvi əhəmiyyətinə görə seçilir. Yaxın-uzaq ellərdən gələnlər astma, mədə-bağırsaq və dəri xəstəliklərinin müalicəsində müstəsna rol oynayan bu sudan istifadə edirlər.

* * *

Gəzən ayağa daş dəyər, deyiblər. Nəhəciri dolanıb kənd adamları ilə söhbətimizi davam etdiririk. Muxtar respublikada kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı ilə bağlı dövlət proqramlarının qəbul edilməsi və icrası, torpaq mülkiyyətçiləri üçün yaradılan şərait, onlara göstərilən dövlət qayğısı bu kəndin adamlarını da doğma torpağa, təsərrüfata bağlayıb. Həsən Əhmədov 150, Vidadi Ələkbərov 80 baş xırdabuynuzlu heyvan saxlayır. Rasim Abbasov və Yunis Yaqubov isə 35 hektarda taxıl əkini aparıb. Müsahibimiz Rizvan Abbasov bildirir ki, son illərdə taxılçılığın inkişafına göstərilən dövlət dəstəyi təsərrüfatçıların bu əkin növünə marağını artırıb. Əldə olunan məhsulun bazarı olduğundan əkinlərin miqyası hər il artır. Həyətyanı sahələrdən də bu il bol məhsul tədarük olunacağı istisna deyil.

*Müstəqillik illərinin bəhrəsini bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində görmək mümkündür. Min bir zəhmətlə əldə olunmuş sabitlik nəticəsində Naxçıvanın istər uçqar dağ və sərhəd, istər aran, istərsə də mərkəzində hansı yurd yerinə üz tutsaq, belə inkişaf və tərəqqini müşahidə edəcəyik. Elə Nəhəcirdəki kimi...*

**Muxtar RZAZADƏ**
***“Şərqin səhəri” qəzetinin redaktoru***

## Muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi qadınların da bu sahəyə marağını artırıb

Son illərdə muxtar respublikamızda özəl sektorun inkişaf etdirilməsinə yaradılmış şərait çoxsaylı kiçik sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına səbəb olub. Bu sahədə aparılan islahatların nəticəsidir ki, hazırda muxtar respublikamızda kənd təsərrüfatından tutmuş özəl tibb müəssisələrinədək, un məmulatı sexlərindən dərman bitkilərinin istehsalına kimi xeyli sayda kiçik və böyük sahibkarlıq subyektləri fəaliyyət göstərir. Bu sahədə çalışan qadınlarımızın sayı da az deyil. Onlara hərtərəfli dövlət qayğısı göstərilir. 2000-2016-cı illər ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən yüngül və yeyinti sənayesi, xidmət sektorunun müxtəlif sahələri üzrə fəaliyyət göstərən qadın sahibkarlara 1 milyon 500 min manat həcmində kredit verilib.

Dahilərdən biri deyib ki, təsadüfün hökmü böyük olur. Bir təsadüf nəticəsində tanış olduğum ağbirçək xanım da muxtar respublikamızda aktiv fəaliyyəti ilə diqqətçəkən sahibkar qadın Elmira Əliyevadır. O, qədim Naxçıvan elində və hətta onun hüdüdlarından kənarda da böyük hörmətə, şöhrətə malik oftalmoloqdur. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş oftalmoloqu, Əməkdar həkim, SSRİ cərrahiyyə əlaçısı, ali kateqoriyalı göz həkimi Elmira həkim 45 ildir ki, bu sahədə “külüng çalır”, insanlara nur bəxş edir. O bildirir ki, hər peşənin, hər sənətin öz yolu var. Bu yol xidmət yoludur, xalqa, Vətənə bağlılıq yoludur. Həkimlərin qarşısında yalnız bir yol var: insan həyatının keşiyində dayanmaq... İnsan orqanizminin ən incə, ən ülvi, ən titrəyiş yeri gözüdür. Elə buna görə də göz həkimləri daha dəqiq, hər an ehtiyatlı, səbirli olmalıdır. Bu yol nə qədər zəhmətli olsa da, sonu işıqlı, sevincli bir yoldur. Həkim bütün ömrü boyu bu cür yanar hisslə yaşayır. Tanrının mənə bəxş etdiyi ömür payımda insanlara nur paylamaq nəsibim olub. Bunun üçün özümü bəxtəvər sayıram. Təqaüdə çıxdıqdan sonra işlərimi davam etdirmək, xalqıma, elimə-obama daha da yararlı olmaq üçün göz klinikası açmaq qərarına gəldim. Elə bu məqsədlə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etdim və dövlət dəstəyi ilə bu klinika fəaliyyətə başladı.

“Hilal” Məhdud Məsuliyyətli Cəmiyyətinin göz klinikası 1999-cu ildən fəaliyyət göstərir. Klinikada göz müayinəsi, müalicəsi və göz əməliyyatları aparılır. Bundan başqa, fizioterapiya, laboratoriya şöbələri muxtar respublika sakinlərinə yüksək dərəcədə xidmət göstərir. Mən bir həkim kimi göz bəbəyim qədər sevdiyim Naxçıvanımda insanlar üçün düzgün müalicə və müayinənin qüsursuz şəkildə aparılmasını təmin etməyə səy göstərirəm. El-obamın insanlarının gözlərinə nuru başqa ölkələrdə yox, məhz Naxçıvanda axtarmalarını təmin etməyə var gücümlə çalışır, öz Vətənimə, xalqıma xidmət etdiyim üçün qürur duyuram.

Elmira həkim qadın sahibkarlara, xüsusilə tibb sahəsinə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirir və qeyd edir ki, qazandığımız uğurlar sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsidir.

Fəaliyyəti ilə tanış olduğum digər sahibkar xanım isə öz işinə böyük hörmətlə yanaşan qəhrəman ana, həyatının 35 ilini təhsilin inkişafına həsr edən, hazırda təqaüddə olan Rüxsarə Ağayevadır. Ailə təsərrüfatını kiçik müəssisəyə çevirən bu xanım öz ailəsi ilə bərabər, 7 nəfərə də qazanc qapısı açıb.

Şərur rayonu muxtar respublikanın ən böyük bölgəsi olsa da, burada Rüxsarə Ağayevanın lavaş sexini tanımayan yoxdur. Rayonun Cəlilkəndində fəaliyyət göstərən lavaş sexinin adını çəkən kimi, hamı bu ünvanı sənə nişan verə bilər. Hələ lavaş sexinə çatmamış bişən lavaşın ətri adama gəl-gəl deyir, desək, yanılmarıq. Axı biz naxçıvanlılar çörəyin bu növünü daha çox sevirik. Elə Azərbaycan mətbəxində də lavaş deyəndə, öncə, Naxçıvan yada düşür. Biz də bu lavaşın ətrinə gedib çatdıq Rüxsarə xanımın lavaş sexinə. Hal-əhval tutduqdan sonra sahibkar xanım bizi müəssisə ilə tanış etdi və bildirdi ki, 2014-cü ildə dövlət dəstəyi ilə fəaliyyətə başlayan müəssisənin avadanlıqları İran İslam Respublikasından gətirilib. Hazırda Cəlilkənd və ətraf kəndlərin camaatının çörəyə olan ehtiyacını ödəməyə çalışırıq. Yaşlı adamlar yaxşı xatırlayarlar: 90-cı illərin çətin vaxtları dəyirmanda üyütməyə taxılımız, çörək bişirməyə unumuz, süfrəyə qoyacaq çörəyimiz yox idi. Naxçıvan çox çətin günlər keçirirdi. Torpaqlar yiyəsiz qalmışdı, əkib-becərən yox idi. Müharibə və blokada sınağa çəkmişdi bu qədim yurdu. Ulu öndər Heydər Əliyevin gəlişi naxçıvanlıları çətin vəziyyətdən çıxardı.

Allah razı olsun dövlətimizdən. İndi öz torpaqlarımızı əkib-becərib, bol məhsul əldə edib, taxılı öz dəyirmanlarımızda bərəkətli una çevirib, çörəyimizi özümüz bişirməyə hər cür şərait yaradıb. Artıq çörək almaq üçün rayon mərkəzinə getməyimizə ehtiyac yoxdu. Necə deyərlər, taxılımız bərəkətli torpaqlarımızdan, duzumuz Duzdağımızdan, çörəyimiz də öz təndirimizdəndir.

Bəli, bütün bu könülaçan işlər bir daha sübut edir ki, Azərbaycan qadını ölkəmizin, eləcə də muxtar respublikamızın tərəqqisinə öz töhfəsini verir, doğma yurdumuzun daha da çiçəklənməsi naminə həyatın müxtəlif sahələrində, eləcə də sahibkarlığın inkişafında əzmkarlıqla çalışır.

**Ramiyyə ƏKBƏROVA**

***Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərində təcrübə məqsədilə tütün əkininə başlanılıb. Əkinlər “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqı tərəfindən həyata keçirilir.***

## Kəngərli rayonunda tütün əkini aparılır

Tütün şırım üsulu ilə əkilir və indiyədək Təzəkənddə 7 hektar, Xıncabda isə 1 hektar sahədə əkin keçirilib, suvarma və becərmə işləri görülüb. Həmin sahələrdə Virciniya, Oriental və İzmir tütün sortlarından istifadə olunub.

Bu tədbirlər həmin yaşayış məntəqələri əhalisinin məşğulluğunun təmin edilməsinə öz müsbət təsirini göstərir. Tütün yetişdirilməsi ilə əlaqədar “Cahan Tobacco” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 20 nəfər işlə təmin olunub.

“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqından aldığımız məlumata görə, aparılan tütün əkinləri müsbət nəticə verərsə, əkinlər muxtar respublikanın müxtəlif bölgələrində də həyata keçiriləcək.

Qeyd edək ki, Xıncab kəndində bu il mart ayının 10-dan başlayaraq xüsusi tütün istixanaları yaradılıb. Hazırda tütün şitillərinin sahələrə köçürülməsi işi davam etdirilir. Əkin üçün məhz bu kəndlərin ərazisinin seçilməsinin səbəbi burada torpaqların tütünçülük üçün əlverişli olması ilə bağlıdır.

**Xəbərlər şöbəsi**

***Akademik İsa Həbibbəylinin "Ədəbi şəxsiyyət və zaman" çoxcildliyinin II cildi nəşr olunmuşdur. Kitabda Naxçıvanın görkəmli ədəbi simaları haqqında məqalələr də yer almışdır. Bugünkü nömrədən etibarən həmin məqalələri "Şərq qapısı"nın oxucularına təqdim edirik.***




# Əliqulu Qəmküsarın ədəbi taleyi: sənətdə və həyatda

XX əsrin əvvəlləri Azərbaycan tənqidi-realist ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əliqulu Qəmküsar (1880-1919) milli satirik şeirin və publisistikanın istedadlı yaradıcılarından biridir. O, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin başçılıq etdiyi "Molla Nəsrəddin" ədəbi məktəbində özünəməxsus sanballı yeri və xüsusi mövqeyi olan sənətkar kimi qəbul olunur. Cəlil Məmmədquluzadə mollanəsrəddinçilərin xidmətlərini dəyərləndirərkən onlardan hər birinin ədəbiyyatdakı yerinin obyektiv qiymətini vermişdir. Mirzə Cəlilin verdiyi qiymətlər yazıçı meyarlarının ifadəsi olsa da, elmi dəyərləndirmələrlə üst-üstə düşür, hətta bir çox hallarda ədəbiyyatşünaslıq elminə istiqamət verir. Belə ki, Cəlil Məmmədquluzadənin Mirzə Ələkbər Sabirə verdiyi "ən qiymətli və nadir bir şairimiz" qiyməti, Əli Nəzmini "ikinci Sabirimiz" adlandırması, Əbdürrəhim bəy Haqverdiyevi "Molla Nəsrəddin" məcmuəsinin ibtidasından... məcmuənin ən yavuq əməkdaşlarından və məsləhətçi dərəcəsində yoldaşlarından biri" hesab etməsi... Azərbaycan mollanəsrəddinşünaslıq elminin nəzəri qənaətləri səviyyəsində ümumiləşir. Bu mənada, görkəmli yazıçının Əliqulu Qəmküsar haqqındakı aşağıdakı mülahizələri geniş mənada Azərbaycan elmi-ədəbi ictimaiyyətinin fikri kimi səslənir: "Molla Nəsrəddin"də iştirak edən şairlər cərgəsində Cüvəllağı yoldaşımız (Əliqulu Qəmküsar – İ.H.) fikir açıqlığı və... mövhumata qarşı şiddətli tənqid və çıxışları ilə hətta Sabiri də qabaqlamışdı... Nə qədər ki, məcmuəmizin adı söylənilir, onun əziz və qiymətdar qələm yoldaşlarının qabaq sırasında Əliqulu Qəmküsarın – Cüvəllağı bəyin adı həmişə zindəbad (yaşasın – İ.H.) alqışları ilə zikr olunacaqdır".

Böyük ədibin dəyərləndirməsindəki Sabirlə müqayisə zahirən mübahisəli görünə bilər. Lakin nəzərə almaq lazımdır ki, Cəlil Məmmədquluzadə Əliqulu Qəmküsarı Mirzə Ələkbər Sabirlə müqayisə edərkən sənətkarlıq səviyyəsindən, bədii istedadın dərəcəsindən söz açmamışdı. Əlbəttə, nəinki "Molla Nəsrəddin" ədəbi məktəbində, ümumən Azərbaycan satirik şeirinin tarixində satira sənətkarlığı baxımından Mirzə Ələkbər Sabirdən uca zirvə yoxdur. Məsələnin bu cəhətini Cəlil Məmmədquluzadə də "Sabir mərdi-mərdanə özünü tulladı "Molla Nəsrəddin" meydanına... nərilti və gurultu ilə dalbadal yazmaqda davam etdi", yaxud "Sabir heç kəsə yox, bəlkə Sicimqulu Sabirə oxşayıbdır" kimi mülahizələri ilə dönə-dönə təsdiq edibdir. Lakin "fikir açıqlığı və mövhumata qarşı şiddətli tənqid və çıxışları" baxımından Əliqulu Qəmküsar mollanəsrəddinçi satirik şeirdə hər kəsdən qabaqda idi. Nə üçün? Bunun bir çox səbəbləri var idi. Əvvəla, Mirzə Ələkbər Sabir Şamaxının dindar ailələrindən birində dünyaya gəlib, mövhumatçı mühitdə böyüyüb formalaşmışdı. Əliqulu Qəmküsar isə "əsas sənəti papaqçı olan", "Culfa gömrükxanasında uzun müddət komisyonçu vəzifəsində işləyən" Məşədi Ələkbər Nəcəfovun ailəsində tərbiyə almışdı. Culfa gömrükxanası Rusiya tərəfindən idarə olunduğu üçün ailə mühitində və yaxın ətrafda mövhumat nisbətən arxa planda dayanırdı. İkincisi, Əliqulu Qəmküsarın atası Məşədi Ələkbər Nəcəfovun "Səba", əmisi Məhəmmədhüseyn Nəcəfzadənin "Fani", ana babası Məşədi Əsədin "Məddah" təxəllüsü ilə ictimai ruhlu şeirlər yazması onun böyük ədəbiyyata hazırlanmasında ciddi rol oynaya bilmişdi. Hətta Əliqulu Nəcəfov gənclik illərində Məhəmmədhüseyn Hacı Nəcəf oğlunun mövhumata qarşı mübarizəyə yönəlmiş açıq və sərt ruhda yazılmış həcvlərini də dinləməli olmuşdu. Belə həcvlərdən parçalar sonralar Əliqulu Qəmküsarın qardaşı Rzaqulu Nəcəfovun Cəlil Məmmədquluzadənin mühitini şərh edən xatirələrində yada salınmışdır. Üçüncüsü, Mirzə Ələkbər Sabirin ədəbi taleyində Şamaxı məktəbinin müəllimi, görkəmli şair Seyid Əzim Şirvaninin oynadığı mühüm rolu Əliqulu Qəmküsarın da dünyagörüşünün inkişafında Naxçıvandakı "Məktəbi Tərbiyə"nin müdiri, tanınmış pedaqoq Məhəmməd Tağı Sidqi həyata keçirmişdi. Bu məqamda onlar məktəb illərində oxşar tale yaşamışlar. Dördüncüsü, XIX əsrin sonu və XX əsrin əvvəllərində canlanmaqda olan Şamaxı mühiti ilə müqayisədə Naxçıvanda dünyəvilik və maarifçi mühit daha çox inkişaf etmişdi. Və Əliqulu Qəmküsarın yaxın ətrafı Naxçıvandakı maarifçi mühitə çox bağlı idi. Naxçıvanda genişlənməkdə olan teatr hərəkatına Nəcəfovlar ailəsi rəğbətlə yanaşırdı. Əliqulu Nəcəfovun dayıları, Moskva Universitetinin hüquq fakültəsini bitirmiş Fərəculla Şeyxov və Səttarxan hərəkatında iştirak etmiş Nəsrulla Şeyxov Naxçıvan teatrının yaradıcılarından olmuşlar. Əliqulu Qəmküsar özü də "Molla Nəsrəddin"ə gələnə qədər Culfada yerli həvəskarlardan ibarət teatr truppası yaratmış və Mirzə Fətəli Axundovun, Əbdürrəhim bəy Haqverdiyevin əsərlərinin tamaşaya qoyulmasını təşkil etmişdi.

Beşincisi, Əliqulu Qəmküsar Culfada yaşadığı illərdə Səttarxan hərəkatında iştirak etmiş, ədəbiyyata milli-azadlıq hərəkatı cəbhəsindən gəlmişdi. Altıncısı, Şamaxı mühitində çox vaxt təklənən Mirzə Ələkbər Sabirdən fərqli olaraq, Naxçıvanda Əliqulu Qəmküsarın tutduğu mövqeyi həmin dövrdə müdafiə edən maarifçi qüvvələr çoxluq təşkil edirdi. XIX əsrin səksəninci illərindən "Molla Nəsrəddin"in nəşrinədək olan mərhələdə Naxçıvanda Avropa və Rusiyada təhsil alıb gəlmiş böyük bir maarifçi cəbhə cəmləşmişdi. Həmin maarifçi nəsil köhnəlmiş həyat tərzinə qarşı birgə mübarizə aparır, regionda məktəbi və teatrı inkişaf etdirir, mətbuatla əlaqə yaradırdılar. Əliqulu Qəmküsarın mənsub olduğu ailə də bu böyük maarifçi hərəkata yaxın idi. Gənc Əliqulu Qəmküsar da vaxtilə Cəlil Məmmədquluzadənin "huşyar" adlandırdığı maarifçi qüvvələrin səsinə səs verənlərdən biri kimi yetişib formalaşmışdı. Yeddincisi, Əliqulu Qəmküsarın açıq və sərt şeirlərinin bir çoxu onun Naxçıvandan Tiflisə köçüb, orada "Molla Nəsrəddin" jurnalı redaksiyasında çalışdığı illərə təsadüf edir. Mühitdən bir qədər uzaqda yaşayıb-yaratmaq ciddi və açıq yazmaq üçün də müəyyən üstünlüyə malikdir. Nəhayət, Əliqulu Qəmküsarın Naxçıvanda və Tiflisdə ikən Cəlil Məmmədquluzadə ilə daha yaxın münasibətlərinin olması, "Molla Nəsrəddin" jurnalında birlikdə çalışması da onun "fikir açıqlığı və mövhumata qarşı şiddətli tənqid və çıxışlarına" qüvvət verirdi. Bu məqamda, yəqin ki, fərdi xarakterin də özünəməxsus rolu az deyildi. Məlum olduğu kimi, müasirləri Əliqulu Qəmküsarın xarakterindəki açıq ruhu müşahidə etmişdilər. Görkəmli yazıçı Əbdürrəhim bəy Haqverdiyev Qəmküsarı yad edərkən onun "gözəl natiq, şirin zəban, dərin fikirli, geniş məlumat sahibi və insanı təəccübə gətirən hafizəli bir vücud" olduğunu ayrıca qeyd etmişdir. Heç şübhəsiz, Əliqulu Qəmküsarın satirik əsərlər yazarkən "Cüvəllağıbəy" imzasını seçməsi də onun xarakterindəki açıq və sərt cizgiləri diqqət mərkəzinə çəkməyə imkan verir.

Göründüyü kimi, Əliqulu Qəmküsar Azərbaycan mollanəsrəddinçi satirik ədəbiyyatının tanınmış nümayəndəsidir. Onun yaradıcılığı Mirzə Ələkbər Sabirin satirik şeir məktəbi istiqamətində yaranan ədəbiyyatda xüsusi yer tutur. O, XX əsrin əvvəlləri Azərbaycan realist-satirik şeirinin və publisistikasının böyük vətəndaşlıq cəsarətinə malik olan mübariz təmsilçisidir. Əliqulu Qəmküsar dövrün, hakim təbəqələrin təzyiqlərindən heç vaxt çəkinməmiş, ciddi satirik ədəbi sözü şax deməyi bacarmışdır. Pristavın simasında hakim təbəqələrin, ictimai quruluşun, müstəmləkəçilik siyasətinin tənqidinə həsr edilmiş satirası ədəbiyyatda sənətkarın vətəndaşlıq cəsarətinə nümunə sayıla bilər:

*Bir əsr idi çıxmışdı ki, meydanə pristav,*
*Məxluqu gətirmişdi bütün canə pristav.*
*Çıxsaydın əgər gəzməyə kəndlərdə görərdin,*
*Min zülm eləyir rəncbərə, dehqanə pristav.*

Satirik şairin yaradıcılığında adlı-ünvanlı satirik şeirlərin çox olması onun böyük vətəndaşlıq cəsarətinin konkret ifadəsidir. Ədəbiyyatşünaslıq elmində müşahidə olunduğu kimi, "onun şeirləri çox zaman adi, gündəlik həyati hadisə və vaqiələrin təsvirindən ibarət olmuşdur". Məsələnin bu cəhəti Əliqulu Qəmküsarı müasirlərindən fərqləndirir. O, satirik şeirləri və publisistikası ilə cəmiyyətin gündəlik həyatıyla üz-üzə idi. Vətəndaş satirikin Molla Mahmud Çakərə, Xalid Xürrəm Səbibəyzadəyə, "şipyon axundlara", "müxəmməsçilərə"... kimi ünvanlı şeirlərində müraciət olunan hadisə və faktlar açıq və ümumiləşmiş şəkildə ifadə olunur. Cəmiyyət həyatının ən müxtəlif dairələrinə nüfuz edib, gerilik və fanatizmi şiddətlə tənqid atəşinə tutan Əliqulu Qəmküsar, sözün böyük mənasında, mollanəsrəddinçi, satirik ədəbiyyatın "cüvəllağısı" idi:

*Yetdin yetənə, yetməyənə bir təpik atdın,*
*Vicdanımı, imanını bircə pula satdın,*
*Şeyxi, qazını, xanı, bəyi bir-birə qatdın,*
*İcma eləyib qıldılar axır sənə nifrət.*

*Tutdun yaxasından Bakının həftədə yazdın,*
*Milyonçu, zavodçu deməkdən beynini qazdın,*
*Uprava, qlavnı bağırıb kefləri pozdun,*
*Saldın Bakıya həftədə bir şuri-qiyamət.*

Bir çox bədii-publisist əsərlərindən, o cümlədən "Qələm qardaşım Kefsizə" adlı şeirindən göründüyü kimi, Əliqulu Qəmküsarın sənətinin məramında, son nəticədə, milli mənafe, ictimai-mədəni tərəqqi ali məqsədə çevrilir. O, cəhalət dəmirini döyüb sındırmaq yollarında millətinə bələdçilik etmək vəzifəsini ləyaqətlə həyata keçirmişdir:

*Sənlə mən nə edə billik bu qədər məxluqə,*
*Ya sözü ciddi yazaq, ya çevirək şuxluqə,*
*Hey çalış, hey çabala, baxma vara, yoxluqə,*
*Yazasan, yazmayasan, bir kəsə təsir etməz,*
*Çox soyuqdur bu dəmir, döymə ki,*
*təğyir eləməz.*

XX əsrin əvvəlləri Azərbaycan satirik şeirində yaranmış taziyanə janrında yazdığı yığcam və kəsərli satiraları ilə Əliqulu Qəmküsar ictimai mühitə qüvvətli şəkildə təsir göstərə bilmişdir. Şairin "dəyənəklər" adlandırdığı taziyanələri geriliyin və cəhalətin başı üstündə dəyənək zərbəsinə çevrilmişdir. Qəmküsarın satirik dəyənəkləri mollanəsrəddinçi ədəbiyyatın batman qılıncı, qamçısı funksiyasını həyata keçirmiş, tərəqqiyə yol açmışdır:

*Bildir cümələrdə dükan açmazdı camaat,*
*Səd şükün, bu il qaldırılıbdır belə adət.*
*Hər ildə müsəlman edə gər bunca tərəqqi,*
*Bir az keçər, aləm deyər: əhsən, belə millət!*

Azərbaycan satirik şeirində Əliqulu Qəmküsarın "dəyənəkləri" böyük Mirzə Ələkbər Sabirin ədəbiyyata gətirdiyi taziyanə janrının bədii təcrübədə daha da genişlənməsinə, kütləviləşməsinə şərait yaratmışdır.

Əliqulu Qəmküsar ruhani despotizmi əleyhinə yazılmış satiraları ilə xalqın gözünü açmaq, milləti mənəvi əsarətdən xilas etmək məqsədində olmuşdur. "Dolaşma", "Axund", "Sinəzən", "Hacılar", "Mollanın" kimi təsirli satirik şeirlərində, "Babı", "Qara bayram", "Məşədi", "Mir Bağırlar", "Şəriətdə şərm yoxdur" və sair məqalələrində həqiqi dindən uzaq olub, məmləkətin və xalqın inkişafında buxova çevrilən mövhumatçıların niyyətləri açıqlanmışdır. Onun yalançı dinçiliyin tənqidi mövzusunda yazılmış satiralarında məşhur "Ölülər" əsərinin ruhu görünür. O, biçarə milləti əsarət altına salan axundların obrazını xalqa çatdırmağı vətəndaşlıq borcu saymışdır:

*Ey mənbəri-peyğəmbəri murdar edən axund,*
*Ey millətin işıq gözünü tor edən axund.*

Mollanəsrəddinçi ədəbiyyatın meydana çıxardığı satirik publisistika Cəlil Məmmədquluzadənin ədəbi kəşfidir. Cəlil Məmmədquluzadəyə qədərki Azərbaycan mətbuatında satira ünsür səviyyəsində mövcud idi. "Molla Nəsrəddin" jurnalında isə satira əsas ədəbi istiqaməti müəyyən edirdi. "Molla Nəsrəddin" Azərbaycan satirik mətbuatının ilk və ən yüksək nümunəsi idi. "Molla Nəsrəddin" ədəbi məktəbində satirik şeirləri və ya hekayələri ilə tanınan ədiblərin böyük əksəriyyəti həm də publisistika ilə məşğul olurdu. Bununla belə, satirik publisistika sahəsində Cəlil Məmmədquluzadədən sonra ardıcıl fəaliyyət göstərənlər daha çox Ömər Faiq Nemanzadə, Əli Nəzmi və Əliqulu Qəmküsar olmuşdur. Cəlil Məmmədquluzadə Azərbaycan satirik publisistikasını yaratmış və bu sahədə ən uca zirvəni fəth etmişdir. Ömər Faiq Nemanzadənin publisistikası daha çox analitik xarakter daşıyıb, təhlil və izahları ilə diqqəti cəlb edir. Buna görə də Ömər Faiqin əksər publisistik əsərlərində satira ikinci planda dayanır. Əli Nəzminin publisistika nümunələri yığcam satirik miniatürlər təsiri bağışlayır. Bütün bunlar mollanəsrəddinçi publisistikanın rəngarəngliyini, üslub müxtəlifliyini nümayiş etdirir. Əliqulu Qəmküsarın satirik publisistikası isə Cəlil Məmmədquluzadə notları üstündə köklənmiş kəsərli mətbu əsərlərdir. Bəzən naşirlərin Cəlil Məmmədquluzadə ilə Əliqulu Qəmküsarın publisist əsərlərini qarışıq salmaları həm də hər iki sənətkarın publisistikası arasındakı mövzu ilə üslub yaxınlığından irəli gəlir. Əliqulu Qəmküsarın publisist məqalələri ədəbiyyatda Cəlil Məmmədquluzadənin satirik publisistika ənənələrinin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Qəmküsarın mahir qələmindən çıxmış "İrəvana səyahətim", "Statistika", "Şeytan fəhləsi", "Tiryək", "Metrik şəhadətnaməsi", "Qarğalar" və sair kimi publisistik məqalələri mollanəsrəddinçi satirik publisistikanı daha da zənginləşdirən əsərlərdir. İctimai kəsər, vətəndaşlıq mövqeyi, cəsarətli münasibət, yığcamlıq və konkretlik Əliqulu Qəmküsar publisistikasının səciyyəvi xüsusiyyətlərini təşkil edir. Ədibin "Şeytan fəhləsi" felyetonunda mollanəsrəddinçi publisistikanın ən yaxşı xüsusiyyətləri, mübariz ruhu, ümumiləşdirmə gücü bütün aydınlığı ilə görünür. "Şeytan fəhləsi" felyetonu qələm fəhləsi Əliqulu Qəmküsarın ciddi həyati müşahidələrinin və satirik publisistika sahəsindəki məharətinin qabarıq ifadəsidir: "Qafqaz şəhərlərinin, kəndlərinin hansı birisinə güzarın düşsə və müsəlman hissəsinə keçsən, diqqətlə bax, gör harada bir təmiz, qəşəng, səliqəli, hissiz, tüstüsüz otaq varsa ki, oradan pitinin ətri bir ağaca kimi vurur və gəlib-gedəni az qalır bihuş etsin, bil ki, ora qəhvə dükanıdır. Və o camaat ki, gördün dövhadövr, bəzisi dizi üstə və bəzisi çöməlib və bəzisi bardaş qurub əyləşib hey qəlyan, çubux, papirus çəkir pülüyür göyə və gah-gah iqtisadi, ictimai, siyasi söhbətlər edir, bil ki, onlar oranın çilənləridir. Və hər vaxtda ki, gördün iki nəfər rubəru əyləşib qonçinka oynuyurlar və ətrafdan bir yığın adam çiyinçiyinə durub boydahaboyda eliyir və bu onu basıb soxulur qabağa, o bunu itələyir və hamısı gözlərini zilliyiblər karta tamaşa eləyirlər, bil ki, onlar da şeytan fəhləsidirlər ki, ayaq üstə durmaqdan gözlərinə qara su enibdir".

"Molla Nəsrəddin" jurnalında Cəlil Məmmədquluzadənin felyetonları ilə mövzu və ideyaca Mirzə Ələkbər Sabirin onu tamamlayan satirik şeirlərinin bir yerdə, eyni başlıq altında verilməsi ənənəsi mövcuddur. Bu, tənqidi-realist ədəbiyyatın bütövlüyünü, tamlığını, mollanəsrəddinçi ədiblərin əqidə və sənət birliyini nümayiş etdirən əhəmiyyətli ədəbi hadisədir. Eyni zamanda həmin düşünülmüş forma "Molla Nəsrəddin" jurnalının daha oxunaqlı, cəlbedici olmasına, digər satirik jurnallardan fərqlənməsinə də kömək etmişdir.

Əliqulu Qəmküsar mollanəsrəddinçi ədəbiyyatda publisistika ilə satirik şeirin növbələşməsi ənənəsinə yenilikçi münasibət bəsləyərək "Molla Nəsrəddin" jurnalında iki müəllifin əvəzinə özünün yazdığı felyetonla satirik şeiri bir yerdə təqdim etmişdir. Bu, "Molla Nəsrəddin" ədəbi məktəbində Əliqulu Qəmküsara məxsus novatorluqdur. Eyni yazıda felyetonla satirik şeirin bir-birini tamamlaması ilə yanaşı, həm də hər ikisinin yüksək bədii səviyyədə alınmasına nail olmaq Əliqulu Qəmküsarın istedadının gücünü, yaradıcılıq imkanlarının genişliyini nəzərə çarpdırır. "Niyə qəzetə və məcmuə satılmır?", "Şeytan fəhləsi", "Məhkəmeyi-ürfiyyə" felyetonlarının davamı kimi təqdim edilən satirik şeir nümunələri bütöv bir əsərin üzvi tərkib hissələri təəssüratı yarada bilir. Qəzet-jurnal alıb oxumağa meyilli olmayan, buna "şeytan işi" kimi baxan həmvətənlərinin gözünü açmağa çalışan Əliqulu Qəmküsar "Niyə qəzetə və məcmuə satılmır?" felyetonunun publisistika hissəsində belə hallara dair ölkənin müxtəlif guşələrindən alınmış xəbərlər verir, bunun ardınca isə içərisində "Molla Nəsrəddin" deyilən jurnalı alma, az pis əməl eylə. Huşun-başın olsun, özünü duzaxə salma, bir tövbə gəl eylə" kimi misralar da olan satirik şeirini oxuculara çatdırmışdır. Hətta şeirin sonluğunda formanı dəyişmiş, aşağıdakı yığcam və təsirli misralarla yazını bitirmişdir:

*Bir belə zərafət*
*Olmaz, a camaat.*
*Oldu bu cür işlər,*
*İslamidə bidət.*
*Bilməm bu nə sözdür,*
*Nə nəqli-hekayət?*
*Kimdir deyən aya?*
*Qaldı dala millət...*
*Milyon dəfə olsun*
*Lənət, ona, lənət!*

Göründüyü kimi, Əliqulu Qəmküsar publisistikada da, satirik şeir sahəsində də istedadlıdır. O, bütövlükdə "Molla Nəsrəddin" dövrü Azərbaycan satirik ədəbiyyatının görkəmli nümayəndəsidir. Əliqulu Qəmküsar ictimai satiranı həyata daha da yaxınlaşdıraraq cəmiyyətdə gedən proseslərlə əlaqələndirmişdir. Əliqulu Qəmküsar təkcə vətəndaşlıq cəsarəti nümayiş etdirən satirik şeirləri və məqalələri ilə deyil, özü də ictimai fəaliyyəti ilə daim mübarizə meydanında olmuşdur.

*Ardı 4-cü səhifədə*

"Molla Nəsrəddin" jurnalının ikinci redaktoru kimi o, böyük demokrat Cəlil Məmmədquluzadənin milli istiqlal mücadiləsi hərəkatında "qabaq cərgədə" təmsil olunmuşdur. Ədəbiyyatşünaslıq elmində "döyüşkən mollanəsrəddinçi" adlandırılması Əliqulu Qəmküsarın özünün və sənətinin xarakterini dolğun şəkildə ifadə edir.

Bununla belə, Əliqulu Qəmküsarın fəaliyyəti çoxcəhətli olub, mədəniyyət sahəsini də əhatə edir. Görkəmli yazıçı Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindəki Şeyx Nəsrullah obrazını 1916-cı ildə Bakı səhnəsində böyük məharətlə yaratmaqla Əliqulu Qəmküsar Azərbaycan teatr tarixinə öz imzasını atmışdır. Teatr sahəsində geniş fəaliyyət göstərməsə də, yalnız Şeyx Nəsrullah obrazı onun mədəniyyət tariximizdə layiqli yer qazanması üçün kifayətdir. Dövrün "ən böyük teatr hadisəsi" hesab edilən "Ölülər" tamaşasında professional səhnə xadimi Mirzağa Əliyevin İskəndər obrazında göstərdiyi məharəti Şeyx Nəsrullah obrazını xüsusi istedadla canlandırmaqla həvəskar aktyor Əliqulu Qəmküsar nümayiş etdirə bilmişdi. "Molla Nəsrəddin"ə qədərki dövrdə Culfada həvəskarlardan ibarət teatr tamaşaları təşkil etməsi də Əliqulu Qəmküsarın mədəniyyət sahəsindəki yaddaqalan xidmətidir. Culfa dövrü teatr fəaliyyəti sanki gələcəkdə Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindəki Şeyx Nəsrullah obrazını səhnədə canlandırmaq üçün məşq idi.

Böyük mollanəsrəddinçi şair Əliqulu Qəmküsar 14 mart 1919-cu ildə Tiflisdə qətlə yetirilmişdir. Şairin öldürülməsi ilə əlaqədar müxtəlif versiyalar mövcuddur. Dövri mətbuatda daha çox yayılmış versiya Qəmküsarın Gürcüstan menşevikləri tərəfindən güllələnməsi ilə bağlıdır. Fikrimizcə, bu məsələdə sovet dövrü ədəbiyyatşünaslıq elminin ideoloji meylinin təsiri də vardır. Bolşevik hakimiyyəti illərində aparılmış tədqiqatlarda menşevik sui-qəsdin qabardılması təbii qəbul edilə bilən əhvalatdır. Əslində isə 1919-cu ildə bütövlüklə Zaqafqaziyada, o cümlədən Gürcüstanda menşeviklərin mövqeyi çox da güclü deyildi. Həm də Əliqulu Qəmküsarın menşeviklərlə elə bir münaqişəsi də yox idi. Hətta bəzi ehtimallara görə Əliqulu Qəmküsar eser-menşevik blokuna müəyyən rəğbət bəsləmişdir. Bu halda şairin menşeviklər tərəfindən məqsədli şəkildə öldürülməsi versiyası çox da əsaslı görünmür. Bu, bəlkə də sovet dövrü tədqiqatlarında Əliqulu Qəmküsarın menşevik meyilli olmasını pərdələmək, onun adını və əsərlərini elmi-ədəbi dövriyyədə saxlamaq kimi o zaman üçün müsbət bir münasibətin, müdrik bir düşüncənin ifadəsidir.

Əliqulu Qəmküsarın qəfil öldürülməsində onun Qafqazda ingilislərin ağalığına qarşı yazılmış "İngiltərə" şeirinin əsas faktora çevrilməsi məsələsinə də yenidən baxmaq lazım gəlir. Doğrudur, "İngiltərə" satirası çox təsirli bir bədii nümunə olmaqla XX əsrin əvvəllərindəki ingilis müstəmləkəçiliyinə vurulmuş ağır zərbə gücünə malik əsərdir. Ancaq "İngiltərə" şeiri 1919-cu ilin əvvəllərində yazılmış və həmin vaxt dövri mətbuatda çap olunmamışdır. Belə olan surətdə ingilis nümayəndəliyinin Azərbaycan dilində yazılan və mətbuata çıxmayan şeirdən qısa vaxtda xəbər tutması, onun müəllifinə qarşı tədbir düşünüb həyata keçirməsi çətin olardı. Xüsusən ingilislərin Gürcüstan menşeviklərinin əli ilə Əliqulu Qəmküsarı qətlə yetirmələri çox da inandırıcı səslənmir. "İngiltərə" satirasında Gürcüstanı da ingilis ağalığından müdafiə etmək meyli də vardır:

*Əsrlərdir bu millət Asiyada kök salıb,*
*Hər yeri, hər ölkəni min fənd-fel ilə alıb.*
*Aləmi bərbad edibdir, bircə Gürcüstan qalıb,*
*İstəyir etsin onu da tar-mar İngiltərə.*

Tarixdən məlum olduğu kimi, XX əsrin əvvəllərində Qafqazda nüfuz və miras üstündə mübarizə aparanlar menşeviklərdən çox bolşeviklər idilər. Əliqulu Qəmküsar 1917-ci ildə yazdığı məşhur "Qarğalar" adlı felyetonunda ölkədəki "hərki-hərkilik aləmi"ndə kadetlər, müsavatçılar, federalistlər və menşeviklərlə yanaşı, bolşevikləri də günahkar saymışdı. Sadəcə olaraq Əliqulu Qəmküsarın seçilmiş əsərləri 1959-cu ildə Bakıda kitab halında nəşr edilərkən "Qarğalar" felyetonunun mətnindən "gah da bolşevik" ifadəsi çıxarılmışdır. Bütün bunlara görə Qəmküsarın öldürülməsində menşeviklərdən çox bolşevikləri təqsirli saymaq mümkün ola bilər. Ancaq baş vermiş sui-qəsdin konkret olaraq bolşeviklər tərəfindən təşkil edilməsinə dair də əsaslı faktlar yoxdur. Digər ehtimallar kimi, qətl hadisəsində bolşevik faktoru da bu gün üçün nə qədər cəlbedici görünsə də, özünün tam təsdiqini tapa bilmir.

Bundan başqa, fikrimizcə, Əliqulu Qəmküsarın Azərbaycan müsavatçıları tərəfindən öldürülməsi faktı da məsələyə tarixi deyil, ideoloji yanaşmanın ifadəsidir. Doğrudur, şairin 31 yanvar 1919-cu ildə "Gələcək" qəzetində çıxmış "Əlaman" satirasındakı kəskin tənqidi notlar müsavat hökumətini qıcıqlandırmışdı. Ancaq məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ruhlu ziyalı rəhbərləri fərqli düşüncələrə dözümlü münasibət bəsləmişlər. Bundan başqa, Əliqulu Qəmküsarın qardaşı, tanınmış publisist və ictimai xadim Rzaqulu Nəcəfovun Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis şəhərindəki konsulluğunda işlər müdiri vəzifəsində işləməsi də qətl hadisəsindəki müsavat faktorunun əsassız olduğunu göstərir.

Qeyd etməliyik ki, yuxarıda qeyd edilən təfərrüatlardan hər biri Əliqulu Qəmküsarın həyatına sui-qəsd edilməsi üçün səbəb ola bilərdi. Lakin bunları təsdiq edə biləcək dəqiq sənədlər və faktlar hələ ki, aşkar edilməyib. Ona görə də mövcud ehtimallara bir daha nəzər salmaqla əldə etdiyimiz məlumatlar əsasında yeni bir versiya irəli sürməyi lazım bilirik.

Bizə görə, Əliqulu Qəmküsarın öldürülməsi məqsədli şəkildə təşkil edilmiş hadisə olmayıb, regiondakı hərc-mərcliyin, qatışıqlığın, "hərki-hərkilik aləminin" nəticəsi idi. Vətəndaş şair özü də baş verən qarışıqlıqdan narahatlığını bir çox satirik şeirlərində və publisist məqalələrində dəfələrlə ifadə etmişdir. Məsələn, 1917-ci ildə "Molla Nəsrəddin" jurnalında çap edilmiş aşağıdakı misraları onun dünyanın sanki yanğına qərq olunduğundan əndişə çəkdiyini göstərməkdədir.

*Hər kəs açırsa ağzın, qövlü qərəzdi yeksər,*
*Bir mətləb üstə hər ay bəhsi-ləsasət eylər,*
*Hər bir yetən qoyar boş əngini, nitq söylər,*
*Axır qalar yarımçıq hər məsələ, hər işlər.*
*Biganələr olar cəm bu dadə, bu haraya.*

*Dünya olubdur yanğın, bir qətrə su tapılmır,*
*Un yox, qəhətdir buğda, xalis çörək tapılmır,*
*Kimdir desin soyulmur, kimdir desin çapılmır.*
*Kimdir desin soyulmur, kimdir desin qapılmır?*
*Məzlum olursa aclar, çox xoşdur ağniyaya.*

Publisist məqalələrində də Əliqulu Qəmküsar "hərki-hərkilik aləminin", "danalı çalıb torbalı oynayacaq" dövrün acınacaqlı mənzərəsini canlandırmış və bu "qaragüruh" zamanına tənqidi münasibət bəslədiyini açıq nəzərə çarpdırmışdır. Bu qəbildən olan satirik şeir və məqalələrin ardıcıl yazıldığı illərdə Əliqulu Qəmküsarın müasiri olmuş digər sənətkarlar da acınacaqlı həyatın mənğənəsində əzab çəkmiş, hərəsi bir səbəbdən həyatla vidalaşmalı olmuşdular. Firidun bəy Köçərlinin, Məhəmməd Hadinin, Abbas Səhhətin, Hüseyn Ərəblinskinin həyatının faciəli sonluğu ən müxtəlif şəkildə "hərki-hərkilik aləminin" məntiqi nəticəsi, kədərli yekunu idi.

Əliqulu Qəmküsarın öldürülməsi hadisəsi də ölkədə baş alıb gedən özbaşınalığın, qarışıq zamanın əhvalatı idi. Ədəbi ictimaiyyət bu faciəli hadisəni Azərbaycan ədəbiyyatına, mollanəsrəddinçi hərəkata vurulan ağır zərbə kimi qarşılamışdı. Görkəmli yazıçı Əbdürrəhim bəy Haqverdiyevin "Əliqulu Nəcəfzadəyə atılan güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi" sirrə sərrast deyilmiş sözləri qətl hadisəsinə geniş mənada Azərbaycan ziyalılarının münasibətini ifadə edirdi.

Bütün bunlarla bərabər, professor Əziz Şərifin "Borba" qəzetində "müsəlman demokratiyasının əsl fədaisi" sayılan şairin qətli ilə əlaqədar çap etdirdiyi "Qəmküsar" adlı nekroloq xarakterli yazıda şairin öldürülməsi hadisəsinin mahiyyətini aydınlaşdırmağa imkan verən işarələr vardır. Həmin vaxt Tiflis şəhərində yaşayan 24 yaşlı Əziz Şərifin nekroloqundan başa düşmək olur ki, "Əliqulu Qəmküsar gecə saat on birdə evə qayıdıb giriş qapısını döyərkən qonşuların şübhəsinə tuş gəlir" və qorxudan vahimə keçirən qonşu qadınların hay-küyünə gələn qaradovoyun dalana açdığı atəşdən qətlə yetirilir. Əziz Şərif bu faktı o vaxt mətbuatda Əliqulu Qəmküsarın qatı cinayətkar kimi öldürülməsinə dair gedən məlumatlara etiraz əlaməti olaraq nəzərə çarpdırmalı olmuşdu. Fikrimizcə, Əliqulu Qəmküsarın öldürülməsi haqqındakı bu məlumat faciəli hadisənin canlı şahidinin təsdiq etdiyi fakt kimi daha inandırıcıdır. Məqalədəki "həyatımızın pərakəndəliyi... bir xalq dostunu alıb apardı" fikri də qətlin düşünülmüş, əvvəlcədən planlaşdırılmış hadisə olmadığını göstərir.

Ümumiyyətlə, professor Əziz Şərifin "Qəmküsar" məqaləsi böyük mollanəsrəddinçi şairin həyatı və yaradıcılığını öyrənmək üçün əhəmiyyətli mənbədir. Bu yığcam məqalədə Əliqulu Qəmküsar satirasının mahiyyətinə obyektiv elmi qiymət verilmişdir. Əziz Şərifin hələ gənclik illərində yazdığı nekroloqdakı aşağıdakı fikirlər Əliqulu Qəmküsarın Azərbaycan ədəbiyyatı tarixindəki rolunu, yerini doğru-düzgün ifadə edir: "Mərhum son 10-15 il ərzində müsəlman poeziyasında yarın gözəlliyini, bülbülün cəh-cəhini və çiçəklərin ətrini tərənnüm etməkdən xalqın dərd-sərini, cəhalət və şərin, meydanda inildəyən demokratiyanın ələmini təsvir etməyə keçidin əsasını qoyan yeni yönlü şairlər sırasında ilk yerlərdən birini tuturdu".

Bütün XX əsr boyu Azərbaycan ədəbiyyatşünaslığının mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın yaradıcılığı haqqındakı yekun elmi qənaətləri də əsasən bu müddəalardan ibarət olmuşdur. Bundan başqa, Əziz Şərifin məqaləsindəki avtobioqrafik cizgilərə dair bəzi qeydlər şairin həyatının son illərindəki ağır vəziyyətini aydın təsəvvür etməyə imkan yaradır. Məqalədən öyrənirik ki, Qəmküsar "maddi cəhətdən son dərəcə təmin olunmamış, tez-tez cırıq palto və yırtıq başmaqda ac-yalavac gəzib dolaşan, ürəyində intəhasız qəm-qüssə, baxışlarında insana sönməz sevgi daşıyan istedadlı şair idi".

Bütövlükdə Əliqulu Qəmküsarın tərcümeyi-halını, taleyini və sənətini öyrənmək baxımından əhəmiyyətli olduğunu nəzərə alaraq, professor Əziz Şərifin məqaləsini oxuculara təqdim etməyi faydalı hesab edirik:

"Bazar günü martın 16-da Tiflis şəhərinin müsəlmanları faciəli şəkildə həlak olmuş, hələ gənc olan bir şairi – Əliqulu Nəcəfovu dərin kədər hissi ilə torpağa tapşırdılar (O, Müsəlman Sosial-Demokrat "Hümmət" təşkilatının orqanı olan "Gələcək" qəzetinin əməkdaşı idi).

Mərhum son 10-15 il ərzində müsəlman poeziyasında yarın gözəlliyini, bülbülün cəh-cəhini və çiçəklərin ətrini tərənnüm etməkdən xalqın dərd-sərini, cəhalət və şərin meydanında inildəyən demokratiyanın ələmini təsvir etməyə keçidin əsasını qoyan yeni yönlü şairlər sırasında ilk yerlərdən birini tuturdu.

İlk dəfə mərhum şair Sabirin getdiyi yol 1911-ci ildə o, vəfat etdiyindən sonra dalana dirənə bilərdi. Lakin bu yolda artıq müsəlman demokratiyasının əsl fədaisi möhkəm dayanmışdı. O, özünün ahəngdar, xalq dilində yazılmış şeirlərində cəmiyyətimizin bütün xəstəliklərini əks etdirir, xalqın canını bürüyən bütün yaraları açıb göstərirdi.

Müsəlman həyatının elə bir sahəsi yoxdur ki, bu ilhamlı şairin diqqətindən kənarda qalmış olsun. Çoxüzlü almazda olduğu kimi, Qəmküsar poeziyasında da müsəlman ruhanilərinin ədəbsizliyi də, bəy və mülkədarların tüfeyliliyi və zülmü də, demokratiyanın zülmətdə qalması, gücsüzlüyü də, qadınların hüquqsuzluğu da və ümumiyyətlə, türkləri Avropa mədəniyyətindən uzaqda saxlayan hər şey öz əksini tapır.

Mərhum şair göz yaşları içərisində güldürən və hətta gülüşün özü idi. Bəzən cəmiyyəti və onun adət-ənənələrini amansız tənqid atəşinə tutur, başqa şair və jurnalistlərin toxunmağa belə cəsarət etmədiyi qüsurları açıb göstərirdi.

Qəmküsar məşhur "Molla Nəsrəddin" jurnalının nəşrində kifayət qədər fəal iştirak edirdi. Bu, o jurnal idi ki, xalqımızın oyanışında ilk qaranquş olmuşdu və Rusiya və İranın savadlı müsəlmanları həmin gənc şairin çox gözəl, ahəngdar şeirlərini onun hər bir nömrəsindən məmnuniyyətlə oxuyardılar.

Son zamanlar mərhum şair "Gələcək" qəzetinin nəşrində yaxından iştirak edir, orada felyeton və şeirlərini çap etdirirdi.

Amansız tale ona öz gücünü bir daha göstərmək imkanı vermədi və onu müsəlman demokratiyasının əlindən vaxtsız alıb apardı.

Mərhum şair ən dəhşətli, ən faciəli bir şəraitdə dünyasını dəyişdi.

Gecə saat 11-də evə qayıdıb giriş qapısını döyərkən qonşuların şübhəsinə tuş gəlir və... onu qətlə yetirirlər. İki gündən sonra – dəfn günü yerli qəzetlərdə kiçik qeyd peyda olur: "Martın 15-nə keçən gecə Moskovskaya küçəsində milisionerlər tərəfindən bir qatı cinayətkar öldürülmüşdür. Ölənin familiyası məlum deyil".

Taleyin acı istehzasına bir bax! Ən yaxşı şairin həlakına dair məlumat xronikada "Cinayətkarın qətli" başlığında verilir.

Həyatımızın pərakəndəliyi... müsəlman poeziyasının və ədəbiyyatının əlindən gözəl bir nəğməkarı, boğulan demokratiyaya ürəkdən yanan bir xalq dostunu alıb apardı.

Şairin olumu da, ölümü də faciədən uzaq ola bilmədi. O, maddi cəhətdən son dərəcə təmin olunmamış, tez-tez cırıq palto və yırtıq başmaqda ac-yalavac gəzib dolaşan, ürəyində intəhasız qəm-qüssə, baxışlarında insana sönməz sevgi daşıyan istedadlı şair idi. Və namərd bir insanın qaba gülləsi poeziyaya bu qədər dəyərli incilər bəxş etmiş qələmini onun əlindən aldı.

...Hökumət başsız qalmış müsəlmanların hiddətli səsini eşitməli, qətlin törədilmə halını təfsilatıyla aydınlaşdırmaq, cinayətkarı ədalətlə cəzalandırmaq üçün ən təsirli tədbirləri görməlidir.

Lakin şair həlak olub! Artıq heç bir qüvvə onu geri qaytara bilməz!

Rahat yat, əziz şair!

Qəbrin nurla dolsun, əvəzsiz yoldaş".

Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı haqqında əhəmiyyətli elmi əsərlər yazılmışdır. Tanınmış ədəbiyyatşünas Lətif Hüseynzadə 1950-ci ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir. Həm də görkəmli elm xadimi olan Mir Cəlal Paşayevin "Azərbaycanda ədəbi məktəblər" adlı doktorluq dissertasiyasında, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun "Azərbaycan Mollanəsrəddini" monoqrafiyasındakı Əliqulu Qəmküsardan bəhs edən bölmələrdə satirik şairin taleyi və sənətinin əsas istiqamətləri elmi cəhətdən təhlil edilib qiymətləndirilmişdir. Bunlar Qəmküsarşünaslığa dair əhəmiyyətli mənbələrdir.

Filologiya elmləri doktoru, professor İslam Ağayevin "Əliqulu Qəmküsar" monoqrafiyası mollanəsrəddinçi şairdən bəhs edən yeganə ayrıca kitabdır. Bununla belə, həmin kitabın nəşr edildiyi vaxtdan keçən 35 ilə yaxın müddətdə elmi-ideoloji mühitdə ciddi dəyişikliklərin baş verdiyini nəzərə alaraq Əliqulu Qəmküsarın həyatı və yaradıcılığının tədqiqinə yenidən qayıtmağı zəruri elmi vəzifələrdən biri hesab edirik.

Eyni zamanda Əliqulu Qəmküsarın ədəbi irsinin toplanılması və nəşri sahəsində də yeni addımların atılmasına ehtiyac vardır. İndiyədək şairin "Seçilmiş əsərləri" iki dəfə kiril və latın əlifbaları ilə nəşr olunsa da, onun külliyyatını tam əhatə etmir. İslam Ağayevin çap etdirdiyi "Əliqulu Qəmküsarın çap olunmuş əsərlərinin biblioqrafiyası"nda qeyd edilən bədii-publisist yazıların böyük əksəriyyəti mövcud nəşrlərə daxil edilməmişdir. Heç şübhəsiz, şairin bu biblioqrafiyaya düşməyən, axtarışdan kənarda qalan əsərləri də olmamış deyildir. Ədibin məktubları da indiyə qədərki nəşrlərə salınmamışdır. Bütün bunların hamısının toplanılıb yeni bir mükəmməl nəşrin meydana qoyulması həllini gözləyən məsələdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 431